# DİN-in şəxsi heyəti 20 Yanvar şəhidlərinin xatirəsini ehtiramla anıb





**Yanvarın 19-da daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və DİN-in şəxsi heyəti 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər.**

Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş qəhrəman Vətən övladlarının məzarları ziyarət olunub, unudulmaz və müqəddəs xatirələri yad edilib.

Azərbaycan.- 2023.- 20 yanvar.- S.5.